# İfaçılıq sahəsində öz dəsti-xətti olan sənətkar

***Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Əməkdar artist, tanınmış qarmon ifaçısı Gülbahar Şükürlü 5 yanvar 2024-cü il tarixində vəfat edib. Gülbahar Şükürlü 20 mart 1962-ci ildə Bakı şəhərində anadan olub.***

Orta məktəbi bitirdikdən sonra 4 nömrəli İncəsənət Gimnaziyasına daxil olaraq təhsilini orada davam etdirib.

16 yaşından qarmon sənəti ilə məşğul olan Gülbahar xanım uzun müddət Azərbaycan Respublikasının Xalq artistləri - Mələkxanım Əyyubova, Səkinə İsmayılova və Əməkdar artist Zöhrə Abdullayeva ilə birgə çalışıb.

1993-cü ildə Zöhrə Abdullayevanın təkidi ilə efirə çıxaraq, Azərbaycan Dövlət Televiziyasında 30 dəqiqəlik solo konsertlə çıxış edib və böyük tamaşaçı kütləsinin sevgisini qazanıb. Sonra davamlı olaraq Azərbaycan Dövlət Televiziyasında digər verilişlərə dəvət alaraq, solo çıxışlar edib.

Gənc yaşlarından musiqiçinin bəstələdiyi "Aytac" rəqsi və eyniadlı ilk albomu (1998) ona böyük uğur gətirib. Sonrakı illərdə "Rusif", "Ləman", "Rəvanə" rəqslərini yaradıb, dörd albomu işıq üzü görüb.



Özünəməxsus ifası ilə musiqisevərlərin rəğbətini qazanan Gülbahar Şükürlü dəfələrlə beynəlxalq sənət layihələrində ölkəmizi təmsil edib.

Dövlət başçısının müvafiq sərəncamı ilə mədəniyyət sahəsində xidmətlərinə görə 2009-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti" fəxri adına layiq görülüb.

O, uzun müddətdir xərçəng xəstəliyindən əziyyət çəkirdi. Müsahibələrindən birində demişdi: ***"1993-cü ildən bəri sənətdəyəm. Bu illər ərzində Azərbaycanda və onun hüdudlarından kənarda tanınmağa nail olmuşamsa, bu, böyük uğurdur. Sənətçi üçün sevilmək çox böyük qazancdır. Əməkdar artist kimi fəxri ada layiq görüldüm. Bu da illərimin qazancına yazılan böyük şərəfdir".***

Gülbahar xanımın öz yolu, öz cığırı vardı sənətdə. Hər kəsin özünəməxsus ifası var. Bütün qarmon ifaçılarına hörmətlə yanaşır, onların ifalarını dinləyirdi. Heç vaxt heç kimə bənzəmək istəməmişdi. Deyirdi ki, sənətçinin üzünü görmədən belə ifasını eşidərkən əgər onu tanıyırlarsa, deməli, o, nəyəsə nail olub.

Ən böyük arzusu övladlarını xoşbəxt, sağlam görmək idi.

İfaçılıq sahəsində öz dəsti-xətti olan sənətkar yaratdığı musiqi parçaları ilə milyonların qəlbini fəth edib.

Tanınmış musiqiçi, gözəl insan Gülbahar Şükürlünün əziz xatirəsi onu tanıyanların, həmkarlarının qəlbində əbədi yaşayacaqdır.

***"İqtisadiyyat" qəzeti***

İqtisadiyyat.- 2024.- 11-17 yanvar, №1.- S.6.